# Sahibkarlıq fəaliyyəti haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında sahibkarlığın prinsiplərini, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarını və vəzifələrini, onun dövlət tərəfindən müdafiə və təqdir olunmasının forma və üsullarını, sahibkarların dövlət orqanları *və müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumlar (bundan sonra - qurumlar)* ilə qarşılıqlı münasibətlərini müəyyənləşdirir.[1]

Qanun mülkiyyətin bütün formalarının bərabərliyi prinsipinin həyata keçirilməsi, müstəqil olaraq fəaliyyət sahələri seçilməsi və iqtisadi qərarlar qəbul edilməsi əsasında iqtisadi təşəbbüsün və işgüzarlığın geniş təzahür etməsi üçün şərait yaradılmasına yönəldilmişdir.

## I b ö l m ə

## ÜMUMİ MÜDDƏALAR

### M a d d ə 1. **Sahibkarlıq fəaliyyəti**

Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, *malların istehsalından və (və ya) satışından*, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyətdir.[2]

### M a d d ə 2. **Sahibkarlıq haqqında qanunvericilik**

1. Sahibkarlıqla bağlı münasibətlər mülkiyyət formasından, fəaliyyət növündən və sahəsindən asılı olmayaraq Azərbaycan Respublikasının Konstitusiyası, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı, "Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi haqqında" Konstitusiya Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, *"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının qanunları*, bu Qanun və bunların əsasında qəbul edilmiş digər qanunvericilik aktları ilə tənzimlənir.[3]

2. Müəssisə yaratmaqla həyata keçirilən sahibkarlıq fəaliyyəti həmçinin Azərbaycan Respublikasının müəssisələr haqqında qanunvericiliyi ilə də tənzimlənir.

3. Xarici hüquqi və fiziki şəxslərin Azərbaycan Respublikası ərazisində sahibkarlıq fəaliyyətinin xüsusiyyətləri bu maddənin 1-ci və 2-ci *hissələrində* göstərilən qanunvericilik aktları ilə yanaşı "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının beynəlxalq hüquqi öhdəlikləri ilə də tənzim edilir.[4]

4. *Ələt azad iqtisadi zonasında sahibkarlıqla bağlı münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.*[5]

M a d d ə 3. **Sahibkarlığın subyektləri**

1. Sahibkarlıqla Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş hallar istisna edilməklə aşağıdakılar məşğul ola bilərlər:

fəaliyyət qabiliyyəti olan Azərbaycan Respublikasının hər bir vətəndaşı;

mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslər;

hər bir xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs;

xarici hüquqi şəxslər.

2. Sahibkarlıq fəaliyyəti ilə bağlı məsələlərin həllini və ya bu fəaliyyətə nəzarəti həyata keçirən dövlət orqanlarının *və qurumların* vəzifəli şəxslərinə və mütəxəssislərinə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qadağandır.[6]

3. Sahibkarlıq fəaliyyətinin və mülkiyyətçi ilə münasibətlərin xarakterindən asılı olaraq sahibkarlıq fəaliyyəti ilə həm mülkiyyətçinin özü, həm də onun müəyyən etdiyi səlahiyyətlər daxilində təsərrüfatın başçısı hüququ əsasında mülkiyyətçinin əmlakını idarə edən subyekt məşğul ola bilər.

4. Müəssisəni idarə edən subyektin və əmlakın mülkiyyətçisinin münasibətləri tərəflərin qarşılıqlı öhdəliklərini, hüquqlarını və məsuliyyətlərini müəyyən edən müqavilə (bağlaşma) ilə tənzimlənir.

Müəssisənin mülkiyyətçisi müəssisəni idarə edən şəxslə müqavilə bağlandıqdan sonra müqavilədə, müəssisənin nizamnaməsində və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallar istisna edilməklə müəssisənin fəaliyyətinə qarışa bilməz.

M a d d ə 4. **Sahibkarlığın formaları**

1. Azərbaycan Respublikasında sahibkarlığın qanun çərçivəsində həyata keçirilən bütün formalarına icazə verilir. Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq sahibkarlığın bütün formaları bərabər hüquqludur.

2. Fərdi və şərikli şəkildə həyata keçirilən sahibkarlıq qanunvericilikdə nəzərdə tutulmuş formalarda təşkil edilə bilər.

*M a d d ə 4-1.* ***Sahibkarlıq subyektlərinin meyarlara görə bölgüsü***[7]

*1. Sahibkarlıq subyektləri bu Qanunun 4-1-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş meyarlara görə mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə bölünür.*

*2. Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.*

*3. Sahibkarlığın tənzimlənməsi tədbirləri çərçivəsində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə yönəldilən dövlət dəstəyi və güzəştlər bu Qanunun 4-1-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş meyarlar əsasında həyata keçirilir.*

M a d d ə 5. **Sahibkarlıq hüdudlarının hüquqi nizamlanması**

1. *Yalnız qanunla nəzərdə tutulmuş hallarda sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına və ya onun ayrı-ayrı növlərinin qadağan olunmasına yol verilir.*[8]

Dövlət hakimiyyəti və dövlət idarəetmə orqanlarına mülkiyyət və təşkilati-hüquqi formasından asılı olaraq bu və ya digər sahibkarlıq növünə imtiyazlar verən qərarlar çıxarmaq qadağan olunur.

2. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallar istisna edilməklə dövlət orqanlarının, həmkarlar təşkilatlarının sahibkarlıq fəaliyyətinə müdaxiləsi qadağandır.

Sahibkarlıq fəaliyyətinə siyasi partiyaların və ictimai birliklərin müdaxiləsinə yol verilmir.

II bölmə

## SAHİBKARIN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ

M a d d ə 6. **Sahibkarın hüquqları**

1. Sahibkar öz fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikasının qanunvericiliyinə əməl etməklə aşağıdakı hüquqlara malikdir:

istənilən müəssisələr yaratmaq, onların idarəetmə orqanlarında vəzifə tutmaq və bu orqanların işində iştirak etmək;

dövlət və digər mülkiyyət formalarına əsaslanan müəssisələrin əmlakının, başqa əmlakı və əmlak hüquqlarını tamamilə və ya qismən əldə etmək;

başqa müəssisələrin fəaliyyətində öz sərəncamında olan əmlakla iştirak etmək;

tərəflərin razılığı ilə başqa fiziki və hüquqi şəxslərin əmlakından və intellektual mülkiyyət obyektlərindən istifadə etmək;

işçiləri işə qəbul etmək və işdən azad etmək;

işçilərin əməyinin ödənilməsinin forma və sistemini, onların əmlakının məbləğini və gəlirinin digər növlərini müəyyənləşdirmək;

təsərrüfat-maliyyə fəaliyyətini müstəqil həyata keçirmək, məhsul göndərənləri və istehsal olunan məhsulun (işlərin, xidmətlərin) istehlakçılarını seçmək, dövlət ehtiyacları üçün müqavilə əsasında iş görmək və məhsul göndərmək;

öz məhsulları (işləri, xidmətləri) üçün qiymətlər (tariflər) müəyyənləşdirmək;

pul vəsaitinin saxlanılması, hesablaşma, kredit və kassa əməliyyatlarının bütün növlərinin həyata keçirilməsi üçün banklarda hesablar açmaq;

sahibkarlıq fəaliyyətindən əldə edilən mənfəətdən (gəlirdən) vergilər və digər icbari ödənişlərdən sonra onun qalan hissəsindən sərbəst istifadə etmək. Sahibkarlıq fəaliyyəti bağlaşma əsasında həyata keçirilərkən mənfəətin (gəlirin) bölüşdürülməsi qaydası bağlaşmada müəyyən edilir;[9]

məbləğinə məhdudiyyət qoyulmayan şəxsi gəlir əldə etmək;

dövlət sosial təminatı sistemindən istifadə etmək;

könüllü sığorta növünü sərbəst surətdə seçmək;[10]

hüquqlarına və qanuni mənafeyinə xələl gətirən dövlət orqanlarının və digər *qurumların*, təsərrüfat subyektlərinin və fiziki şəxslərin hərəkətlərindən şikayət etmək;[11]

xarici iqtisadi münasibətlərdə iştirak etmək;
valyuta əməliyyatları aparmaq;
ictimai fondlara, səhiyyəyə, xeyriyyəçilik, maarifçilik məqsədlərinə, elmi və mülki məqsədlərə, müharibə və başqa fövqəladə hadisələr zamanı isə dövlətə lazımi yardım göstərilməsinə ianələr vermək;
həmkarlar ittifaqında və digər birliklərdə iştirak etmək.
*2. Sahibkar bu maddədə göstərilən hüquqlarla yanaşı "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hüquqlara malikdir.*[12]

M a d d ə 7. **Sahibkarın vəzifələri**

1. Sahibkarın vəzifələri aşağıdakılardan ibarətdir:
qüvvədə olan qanunvericilikdən və bağladığı müqavilələrdən irəli gələn bütün vəzifələri yerinə yetirmək;
işə qəbul edilən vətəndaşlarla müqavilələr (bağlaşmalar), habelə lazım gəldikdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun surətdə əmək kollektivlərinin adından çıxış edən həmkarlar ittifaqları ilə kollektiv müqavilələr bağlamaq;
işçilərin həmkarlar ittifaqlarında birləşməsinə mane olmamaq;
işçilərin əmək haqqını Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş minimum məbləğindən az olmayan səviyyədə ödəmək;
*müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)*, habelə işçilərin sosial müdafiəsi məqsədilə yaradılan digər fondlara müəyyən edilmiş qaydada və həcmdə ayırmalar vermək;[13]
qanunvericilikdə müəyyən edilmiş vergilər ödəmək;
işçilərə qüvvədə olan qanunvericiliyə və müqavilələrə (bağlaşmalara) müvafiq əmək şəraiti yaratmaq;
qüvvədə olan normativ aktları rəhbər tutaraq ekoloji təhlükəsizliyin, əməyin mühafizəsinin, təhlükəsizlik texnikasının, istehsal gigiyenasının və sanitariyasının təmin edilməsi, arxitektura abidələrinin və digər tarixi abidələrin mühafizəsi sahəsində tədbirlər görmək;
istehsal olunan məhsulların (işlərin, xidmətlərin) rəqabət qabiliyyətliliyinə nail olmaq;
müəlliflik hüququnun qorunmasının qanunvericiliklə müəyyən olunmuş tələblərinə əməl etmək;
əmtəə nişanları və coğrafi göstəricilər haqqında qanunvericiliyin tələblərinə əməl etmək;[14]
istehsal etdiyi məhsulları markalaşdırmaq;
qüvvədə olan qanunvericiliyə müvafiq surətdə lisenziyalaşdırılmalı olan sahələrdə fəaliyyət üçün xüsusi razılıq (lisenziya) almaq;[15]
antiinhisar qanunvericiliyinə riayət etmək;
haqsız rəqabət metodlarından istifadə olunmasına yol verməmək;
öz fəaliyyəti haqqında dövlət, statistika və maliyyə orqanlarına müəyyən edilmiş formada hesabatlar vermək;

müharibə şəraitində və ya başqa fövqəladə hallarda səlahiyyətli dövlət orqanlarının göstərişi ilə təsis sənədlərində nəzərdə tutulmayan və ya həmin sənədlərdə qeyd olunan məqsədlərə uyğun gəlməyən hər hansı qanuni fəaliyyət forması ilə məşğul olmaq.

*2. Sahibkar bu maddədə göstərilən vəzifələrlə yanaşı "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş vəzifələri yerinə yetirir.*[16]

M a d d ə 8. **Sahibkarın əmlak məsuliyyəti**

1. Hüquqi şəxs yaratmaqla fəaliyyət göstərən sahibkarlar seçilmiş təşkilat formasından asılı olaraq tam və ya məhdud əmlak məsuliyyəti daşıyırlar.

2. Hüquqi şəxs yaratmadan fəaliyyət göstərən sahibkar bu fəaliyyətlə bağlı öhdəliklər üçün özünün bütün əmlakı ilə cavabdehdir.

3. Öz fəaliyyətini bağlaşma əsasında həyata keçirən sahibkar rəhbərlik etdiyi müəssisənin öhdəlikləri üçün bağlaşmada müəyyən edilmiş həcmdə məsuliyyət daşıyır. O, bağlaşmadan irəli gələn öhdəliklərin icra edilmədiyi və ya lazımi qaydada icra edilmədiyi üçün də eyni məsuliyyət daşıyır.

4. Ödəmələr yönəldilə bilməyən əmlakın siyahısı Azərbaycan Respublikasının Mülki prosessual məcəlləsi ilə müəyyən edilir.

III b ö l m ə

## SAHİBKARLIĞIN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ

M a d d ə 9. **Sahibkarlığa dövlət köməyi**

1. Dövlət sahibkarlıq fəaliyyətini qanunvericilik, inzibati-hüquq, büdcə, vergi və pul-kredit sistemləri vasitəsi ilə tənzimləyir.

Dövlət maddi-texniki, maliyyə, əmək, informasiya və təbii ehtiyatlardan istifadə sahəsində mülkiyyət və təşkilati-hüquqi imtiyazlara və qeyri-bərabərliyə yol vermir.

Sahibkarlığın sürətli inkişafını təmin etmək üçün dövlət sahibkarlıq fəaliyyətinin öncül istiqamətlərini və buna müvafiq olaraq güzəştlər sistemini müəyyənləşdirir.

Dövlət sahibkarlığa kömək məqsədi ilə informasiya, məsləhət, elm və tədris mərkəzləri, maliyyə fondları yaradır, vergi ödənişlərinin, *kredit* faizlərinin, amortizasiya ayırmalarının güzəştli dərəcələrini və vergi tutulmayan digər ayırmaları müəyyənləşdirir.[17]

2. Sahibkarlığa kömək və onun müdafiəsi üzrə dövlətin vəzifələrini və funksiyalarını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

3. Azərbaycan Respublikasında sahibkarlığın *inkişafına* maliyyə dəstəyi vermək məqsədilə *müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)* fəaliyyət göstərir.[18]

M a d d ə 10. **Sahibkarlıq fəaliyyətinin dövlət qeydiyyatı**

1. Hüquqi şəxs yaratmaqla sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin dövlət qeydiyyatını müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.[19]

2. Hüquqi şəxsin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınması Azərbaycan Respublikasının vergi qanunvericiliyi ilə tənzimlənir.[20]

M a d d ə 11. **Xüsusi razılıq (lisenziya) tələb edən sahibkarlıq fəaliyyəti**

1. Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin bəzi növləri yalnız xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilir.

Xüsusi razılıq (lisenziya) tələb edən fəaliyyət növlərinin siyahısı və xüsusi razılıq (lisenziya) verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunur.

2. Xarici hüquqi və fiziki şəxslər, xarici hüquqi şəxslərin filialları və nümayəndəliklərinin öz ölkələrində müvafiq fəaliyyət növləri ilə məşğul olmaq üçün aldıqları xüsusi razılıqların (lisenziyaların) Azərbaycan Respublikasında tanınıb tanınmaması dövlətlərarası sazişlərlə müəyyən edilir.

Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrində başqa hal nəzərdə tutulmayıbsa, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və xarici hüquqi şəxslər Azərbaycan Respublikasında şəhərsalma fəaliyyətini bu fəaliyyətə xüsusi razılığı (lisenziyası) olan Azərbaycan Respublikasının vətəndaşı və ya hüquqi şəxsi ilə müştərək həyata keçirirlər.[21]

Qalan bütün hallarda həmin fəaliyyətlə məşğul olmaq üçün qanunvericiliyə müvafiq qaydada xüsusi razılıq (lisenziya) alınmalıdır.

3. Sahibkarlıq fəaliyyəti növlərinin xüsusiyyətlərindən asılı olaraq razılığın (lisenziyanın) verilmə müddətləri müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilir.

Müvafiq dövlət orqanları tərəfindən xüsusi razılıq (lisenziya) verilməsi haqqında qərar bu məqsədlə ərizə və qanunvericiliyə müvafiq sənədlər təqdim edildikdən sonra 15 gün müddətində çıxarılır.

Xüsusi razılıq (lisenziya) verilməsindən imtina olunduğu halda bu barədə ərizəçiyə imtinanın əsasları göstərilməklə yazılı məlumat verilməlidir.

Təqdim olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, onlar aradan qaldırıldıqdan və sənədlər təkrar təqdim edildikdən sonra onlara 5 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.

4. Xüsusi razılıq (lisenziya) verilməsindən aşağıdakı hallarda imtina edilir:

a) xüsusi razılıq (lisenziya) verilməsi qaydalarında nəzərdə tutulmuş sənədlər təqdim edilmədikdə;

b) ərizəçinin təqdim etdiyi sənədlərdə qeyri dürüst və ya təhrif olunmuş məlumatlar olduqda;

v) müvafiq fəaliyyət növünün həyata keçirilməsi üçün ərizəçinin zəruri şəraiti olmadıqda;

q) müəyyən ixtisas tələb edən fəaliyyət növü ilə məşğul olmaq üçün müraciət etmiş ərizəçi, bu fəaliyyət növü ilə məşğul olmaq üçün mütəxəssislərin işə cəlb ediləcəyi nəzərdə tutulan hallarda isə həmin mütəxəssislər müvafiq ixtisasa malik olmadıqda;

ğ) qanunvericilikdə nəzərdə tutulan digər hallarda.

5. Xüsusi razılığın (lisenziyanın) alınması üçün təqdim olunmuş sənədlərin qəbulu əsassız gecikdirildikdə, xüsusi razılıq (lisenziya) bu maddədə müəyyən edilmiş müddətdə verilmədikdə və ya sahibkar xüsusi razılığın (lisenziyanın) verilməsindən imtinanı əsassız hesab etdikdə, o, müvafiq məhkəməyə müraciət etmək hüququna malikdir.

Sahibkarın hüquqlarının pozulması faktını aşkar edən məhkəmə onun hüquqlarının bərpası, müvafiq hallarda isə sahibkara xüsusi razılığın (lisenziyanın) verilməsi haqqında qərar çıxarır. Xüsusi razılıq (lisenziya) verən orqan məhkəmənin qərarını aldığı vaxtdan etibarən üç gün müddətində qərarı icra etməlidir.

Eyni zamanda məhkəmə təqsirkar vəzifəli şəxsi qanunla nəzərdə tutulan qaydada məsuliyyətə cəlb edə bilər.[22]

### Maddə 12. **Sahibkarın hüquq və qanuni mənafelərinin dövlət tərəfindən müdafiəsi**

1. Mülkiyyət və təşkilati-hüquqi formalarından asılı olmayaraq öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun surətdə həyata keçirən sahibkarın hüquqlarının və qanuni mənafelərinin müdafiəsini dövlət təmin edir.

2. Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinin xarici dövlətlərin ərazisindəki sahibkarlıq fəaliyyəti sahəsində hüquq və mənafelərinin müdafiəsinə Azərbaycan dövləti təminat verir.

3. Sahibkarlıq fəaliyyətinin yoxlanılmasını həyata keçirən orqanlar, onların hüquq və səlahiyyətləri qanunvericilik aktları ilə müəyyənləşdirilir.

4. Sahibkarın hüquqlarını pozan dövlət orqanlarının və ya digər *qurumların*, yaxud onların vəzifəli şəxslərinin fəaliyyəti nəticəsində, habelə sahibkar barəsində qanunvericilikdə nəzərdə tutulmuş vəzifələrin həmin orqanlar, *qurumlar* və ya vəzifəli şəxslər tərəfindən yarıtmaz yerinə yetirilməsi nəticəsində sahibkara dəyən zərərin, o cümlədən əldən çıxan gəlirlərin əvəzini mülki qanunvericilikdə nəzərdə tutulmuş qaydada həmin orqanlar, *qurumlar* və vəzifəli şəxslər ödəməlidirlər.[23]

5. Qanunda nəzərdə tutulan hallar istisna edilməklə sahibkarın əmlakı toxunulmazdır.

Dövlət ehtiyacları ~~və ya ictimai ehtiyaclar~~ tələb etdikdə sahibkarın əmlakı yalnız Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş hallarda və şərtlərlə onun bazar dəyəri miqdarında qabaqcadan əvəzi ödənilməklə özgəninkiləşdirilə bilər.[24]

### Maddə 13. **Sahibkarlıq fəaliyyətinə *nəzarət***[25]

1. Sahibkarlıq fəaliyyətinə *nəzarət* həmin fəaliyyətin səmərəli həyata keçirilməsinə

maneələr yaratmamalıdır. Nəzarəti həyata keçirmək hüququna yalnız qanun əsasında bu hüquqlar verilmiş *orqan və qurumlar* malikdir.[26]

Vergi, antiinhisar, sanitariya, ekologiya və s. *orqanların (qurumların)* yoxlamaları yalnız onların səlahiyyətlərinə müvafiq surətdə həyata keçirilir.[27]

2. Dövlət orqanları və onların vəzifəli şəxsləri tərəfindən sahibkarlıq fəaliyyətinin yoxlanılması qaydası pozulduğu halda sahibkara dəyən zərərin ödənilməsi məbləğinə yoxlamaya bilavasitə cəlb olunmuş işçilərin yoxlama müddətindəki əmək haqqı, yoxlama ilə bağlı istehsalın məcburi dayandırılması müddətində işçilərin əmək haqqı və əldən çıxmış gəlirlərin əvəzi daxil edilməlidir.

*3. Sahibkarlıq sahəsində aparılan yoxlamaların məqsəd və prinsipləri, təşkili və aparılması qaydası "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.*[28]

M a d d ə 14. **(Çıxarılıb)**[29]

M a d d ə 15. **Sahibkarın məsuliyyəti**

Sahibkar Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə əməl etmədiyi, öz öhdəliklərini icra etmədiyi və ya lazımi qaydada icra etmədiyi hallarda qanuna uyğun olaraq mülki-hüquqi, inzibati və cinayət məsuliyyəti daşıyır.[30]

## IV b ö l m ə

## SAHİBKARLIQ FƏALİYYƏTİNİN DAYANDIRILMASI VƏ ONA XİTAM VERİLMƏSİ

M a d d ə 16. **Sahibkarlıq fəaliyyətinin dayandırılması**

Sahibkarlıq fəaliyyətinin dayandırılması haqqında qərarı sahibkarın özü qəbul edə bilər. Antiinhisar fəaliyyəti, vergi, lisenziya verilməsi, ekologiya, sanitariya, arxitektura, texniki təhlükəsizlik və yanğından qorunma məsələləri üzrə səlahiyyətli orqanlar sahibkarlıq fəaliyyətinin dayandırılması barəsində təqdimat vermək hüququna malikdirlər. Bu məsələlər üzrə mübahisələr məhkəmə yolu ilə həll edilir.

M a d d ə 17. **Sahibkarlıq fəaliyyətinə xitam verilməsi**

1. Sahibkarlıq fəaliyyətinə xitam verilməsi haqqında qərarı sahibkar (mülkiyyətçi) özü və ya məhkəmə qəbul edə bilər.
2. Sahibkarlıq fəaliyyətinə məhkəmə tərəfindən yalnız Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda xitam verilə bilər.
3. Sahibkar vəfat etdikdə onun əmlakı mülki qanunvericilikdə nəzərdə tutulmuş qaydada onun varisinə keçir.
4. Bağlaşma əsasında həyata keçirilən sahibkarlıq fəaliyyətinə aşağıdakı hallarda xitam verilir:

bağlaşmanın müddəti başa çatdıqda;
tərəflərin qarşılıqlı razılığı ilə;
məhkəmənin qərarı ilə;
bağlaşmada və qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

**Azərbaycan Respublikasının Prezidenti**
**Əbülfəz ELÇİBƏY.**

Bakı şəhəri, 15 dekabr 1992-ci il
№ 405

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 6 fevral 1996-cı il tarixli 18-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1997-ci il, № 1, maddə 6**)
2. 5 noyabr 1996-ci il tarixli 188-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1997-ci il, № 3, maddə 226**)
3. 24 dekabr 1996-cı il tarixli 214-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 4, maddə 280**)
4. 16 may 2000-ci il tarixli 882-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 7, maddə 489**)
5. 12 oktyabr 2001-ci il tarixli 193-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 686**)
6. 23 noyabr 2001-ci il tarixli 219-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 736**)
7. 23 aprel 2002-ci il tarixli 311-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 241**)
8. 30 aprel 2002-ci il tarixli 317-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 1**)
9. 14 may 2002-ci il tarixli 321-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 248**)
10. 3 dekabr 2002-ci il tarixli 398-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 16**)
11. 4 noyabr 2003-cü il tarixli 509-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 12, maddə 673**)
12. 30 may 2006-cı il tarixli 122-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 8, maddə 657**)
13. 1 fevral 2008-ci il tarixli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 8 fevral 2008-ci il, № 29)**
14. 17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 745**)
15. 9 oktyabr 2007-ci il tarixli 429-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 938**)
16. 1 fevral 2008-ci il tarixli **543-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 2, maddə 49**)
17. 1 aprel 2008-ci il tarixli 588-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №5, maddə 348**)
18. 5 mart 2010-cu il tarixli **972-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 aprel 2010-cu il, № 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 04, maddə 276)**
19. 22 oktyabr 2013-cü il tarixli **767-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 19 noyabr 2013-cü il, № 253; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 11, maddə 1283)**
20. 4 aprel 2014-cü il tarixli **927-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 27 aprel 2014-cü il, № 86, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 333)**
21. 30 sentyabr 2014-cü il tarixli **1036-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2014-cü il, № 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 10, maddə 1156)**

22. 11 noyabr 2016-cı il tarixli **401-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 dekabr 2016-cı il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2014)**

23. 31 may 2017-ci il tarixli 703-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 24 iyun 2017-ci il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 6, maddə 1057**)

24. 29 dekabr 2017-ci il tarixli **963-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 fevral 2018-ci il, № 30, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 2, maddə 156)**

25. 7 dekabr 2018-ci il tarixli **1388-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 2 fevral 2019-cu il, № 26, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 10)**

26. 28 dekabr 2018-ci il tarixli **1412-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 1 fevral 2019-cu il, № 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 29)**

27. 30 sentyabr 2020-ci il tarixli **171-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 noyabr 2020-ci il, № 238, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 11, maddə 1322)**

28. 13 may 2022-ci il tarixli **528-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 iyul 2022-ci il, № 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №7, maddə 692)**

29. 2 dekabr 2022-ci il tarixli **662-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 26 yanvar 2023-cü il, "Azərbaycan" qəzeti, 27 yanvar 2023-cü il, № 18, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 1, maddə 16)**

30. 6 iyul 2023-cü il tarixli **953-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 avqust 2023-cü il, "Azərbaycan" qəzeti, 4 avqust 2023-cü il, № 163, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 8, I kitab, maddə 1103)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 11 noyabr 2016-cı il tarixli **401-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 dekabr 2016-cı il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2014)** ilə Preambulanın birinci hissəsinə "**orqanları**" sözündən sonra "**və müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumlar (bundan sonra - qurumlar)**" sözləri əlavə edilmişdir.

[2] 23 aprel 2002-ci il tarixli 311-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 241**) ilə 1-ci maddənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyasında deyilirdi:

~~Sahibkarlıq fəaliyyəti (sahibkarlıq) fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir.~~

17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 745**) ilə 1-ci maddəsindən ", öz riski ilə" sözləri çıxarılmışdır.

22 oktyabr 2013-cü il tarixli **767-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 19 noyabr 2013-cü il, № 253; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 11, maddə 1283)** ilə 1-ci maddəyə "**mənfəət**" sözündən sonra "**(fərdi sahibkarlar tərəfindən gəlir)**" sözləri əlavə edilmişdir.

30 sentyabr 2014-cü il tarixli **1036-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2014-cü il, № 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 10, maddə 1156)** ilə 1-ci maddədə "**əmtəə satışından**" sözləri "**malların istehsalından və (və ya) satışından**" sözləri ilə əvəz edilmişdir.

[3] 30 sentyabr 2014-cü il tarixli **1036-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2014-cü il, № 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 10, maddə 1156)** ilə 2-ci maddənin 1-ci hissəsində "**Mülkiyyət haqqında" Azərbaycan Respublikasının Qanunu**" sözləri "**Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu**" sözləri ilə əvəz edilmişdir.

2 dekabr 2022-ci il tarixli **662-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 26 yanvar 2023-cü il, "Azərbaycan" qəzeti, 27 yanvar 2023-cü il, № 18, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 1, maddə 16)** ilə 2-ci maddənin 1-ci hissəsində "**Azərbaycan Respublikasının Qanunu**" sözləri "**və "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının qanunları**" sözləri ilə əvəz edilmişdir.

[4] 11 noyabr 2016-cı il tarixli **401-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 dekabr 2016-cı il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2014)** ilə 2-ci maddənin 3-cü hissəsində "**bəndlərində**" sözü "**hissələrində**" sözü ilə əvəz edilmişdir.

[5] 28 dekabr 2018-ci il tarixli **1412-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 1 fevral 2019-cu il, № 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 29)** ilə 2-ci maddəyə yeni məzmunda 4-cü hissə əlavə edilmişdir.

[6] 11 noyabr 2016-cı il tarixli **401-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 dekabr 2016-cı il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2014)** ilə 3-cü maddənin 2-ci hissəsinə "**orqanlarının**" sözündən sonra "**və qurumların**" sözləri əlavə edilmişdir.

[7] 29 dekabr 2017-ci il tarixli **963-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 fevral 2018-ci il, № 30, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 2, maddə 156)** ilə yeni məzmunda 4-1-ci maddə əlavə edilmişdir.

[8] 30 sentyabr 2014-cü il tarixli **1036-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2014-cü il, № 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 10, maddə 1156)** ilə 5-ci maddənin 1-ci hissəsinin birinci bəndi yeni redaksiyada verilmişdir.

~~Əvvəlki redaksiyada deyilirdi:~~

~~Sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına yalnız dövlətin səlahiyyətlərinə aid məsələlər—qanunçuluğun gözlənilməsi ölkənin və vətəndaşların təhlükəsizliyi və müdafiəsi, vergi, qiymət və antiinhisar tənzimlənməsi, sosial təminatlar verilməsi, ekologiya, sanitariya, yanğından qorunma və arxitektura normalarının gözlənilməsi və tarixi abidələrin mühafizəsi məsələləri üzrə yol verilir.~~

13 may 2022-ci il tarixli **528-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 iyul 2022-ci il, № 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №7, maddə 692)** ilə 5-ci maddəsinin 1-ci hissəsinin birinci abzasına "**məhdudlaşdırılmasına**" sözündən sonra

"**və ya onun ayrı-ayrı növlərinin qadağan olunmasına**" sözləri əlavə edilmişdir.

[9] 22 oktyabr 2013-cü il tarixli **767-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 19 noyabr 2013-cü il, № 253; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 11, maddə 1283)** ilə 6-cı maddənin birinci hissəsinin onuncu bəndinin birinci cümləsinə "**mənfəətdən**" sözündən sonra "**(gəlirdən)**" sözü, ikinci cümləsinə "**mənfəətin**" sözündən sonra "**(gəlirin)**" sözü əlavə edilmişdir.

[10] 4 aprel 2014-cü il tarixli **927-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 27 aprel 2014-cü il, № 86, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 333)** ilə 6-cı maddənin birinci hissəsinin on dördüncü abzasında "**sığorta**" sözündən əvvəl "**könüllü**" sözü əlavə edilmişdir.

[11] 11 noyabr 2016-cı il tarixli **401-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 dekabr 2016-cı il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2014)** ilə 6-cı maddənin 1-ci hissəsinin on dördüncü bəndində "**orqanların**" sözü "**qurumların**" sözləri ilə əvəz edilmişdir.

[12] 30 sentyabr 2014-cü il tarixli **1036-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2014-cü il, № 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 10, maddə 1156)** ilə 6-cı maddənin mətni 1-ci hissə hesab edilmişdir və maddəyə 2-ci hissə əlavə edilmişdir.

[13] 3 dekabr 2002-ci il tarixli 398-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 16**) ilə 7-ci maddəsinin altıncı abzasında "**dövlət sığorta fonduna**" sözləri "**Dövlət Sosial Müdafiə Fonduna**" sözləri ilə əvəz edilmişdir.

31 may 2017-ci il tarixli 703-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 24 iyun 2017-ci il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 6, maddə 1057**) ilə 7-ci maddəsinin 1-ci hissəsinin altıncı abzasında "**Dövlət Sosial Müdafiə Fonduna**" sözləri "**müvafiq icra hakimiyyəti orqanına**" sözləri ilə əvəz edilmişdir.

30 sentyabr 2020-ci il tarixli **171-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 noyabr 2020-ci il, № 238, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 11, maddə 1322)** ilə 7-ci maddəsinin 1-ci hissəsinin beşinci bəndində "**orqanına**" sözü "**orqanının müəyyən etdiyi orqana (quruma)**" sözləri ilə əvəz edilmişdir.

[14] 12 oktyabr 2001-ci il tarixli 193-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 686**) ilə 7-ci maddəsinin on ikinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyasında deyilirdi:

~~əmtəə (xidmət) nişanlarının və markalarının qeydiyyatdan keçirilməsi, işlədilməsi və verilməsi qaydalarına qanunvericiliyə müvafiq surətdə əməl etmək;~~

[15] 9 oktyabr 2007-ci il tarixli 429-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 938**) ilə 7-ci maddəsinin on dördüncü abzasında "**xüsusi icazə**" sözləri "**xüsusi razılıq**" sözləri ilə əvəz edilmişdir.

[16] 30 sentyabr 2014-cü il tarixli **1036-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2014-cü il, № 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 10, maddə 1156)** ilə 7-ci maddənin mətni 1-ci hissə hesab edilmişdir və maddəyə 2-ci hissə əlavə edilmişdir.

[17] 5 mart 2010-cu il tarixli **972-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan"**

**qəzeti, 17 aprel 2010-cu il, № 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 04, maddə 276) ilə** 9-cu maddəsinin 1-ci bəndinin dördüncü hissəsində "**Milli Bankı**" sözləri "**Mərkəzi Bankı**" sözləri ilə əvəz edilmişdir.

6 iyul 2023-cü il tarixli **953-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 avqust 2023-cü il, "Azərbaycan" qəzeti, 4 avqust 2023-cü il, № 163, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 8, I kitab, maddə 1103)** ilə 9-cu maddəsinin 1-ci hissəsinin dördüncü abzasında "**Azərbaycan Respublikası Mərkəzi Bankı ssudalarının**" sözləri "**kredit**" sözü ilə əvəz edilmişdir.

[18] 30 aprel 2002-ci il tarixli 317-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 1)** ilə 9-cu maddənin 2-ci və 3-cü bəndlərində "**Azərbaycan Respublikası Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi**" sözləri "**Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı**" sözləri ilə əvəz edilmişdir.

4 noyabr 2003-cü il tarixli 509-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 12, maddə 673**) ilə 9-cu maddənin 3-cü bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyasında deyilirdi:

~~Sahibkarlığa kömək tədbirlərini maliyyələşdirmək məqsədilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı yanında Sahibkarlığa Kömək Milli Fondu fəaliyyət göstərir.~~

7 dekabr 2018-ci il tarixli **1388-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 2 fevral 2019-cu il, № 26, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 10)** ilə 9-cu maddənin 3-cü hissəsində "**inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması sahəsində tədbirlərdə iştirak etmək, onlara**" sözləri "**inkişafına**" sözü ilə, "**müvafiq icra hakimiyyəti orqanının nəzdində Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu**" sözləri "**müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)**" sözləri ilə əvəz edilmişdir.

[19] 5 noyabr 1996-ci il tarixli 188-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1997-ci il, № 3, maddə 226**) ilə 10-cu maddənin 1-ci bəndində "**şəxslərin**" sözündən sonra "**dövlət**" sözü əlavə edilmişdir.

1 fevral 2008-ci il tarixli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 8 fevral 2008-ci il, № 29)** ilə 10-cu maddəsinin 1-ci bəndində "**Azərbaycan Respublikasının müəssisələr haqqında qanunvericiliyində göstərilən orqanlar**" sözləri "**müvafiq icra hakimiyyəti orqanı**" sözləri ilə əvəz edilmişdir.

[20] 6 fevral 1996-cı il tarixli 18-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1997-ci il, № 1, maddə 6**) ilə 10-cu maddənin 2-ci bəndinə hissələr əlavə edilmişdir.

[21] 14 may 2002-ci il tarixli 321-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 248**) ilə 11-ci maddəsinin 2-ci bəndinə ikinci abzas əlavə edilmişdir.

16 may 2000-ci il tarixli 882-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 7, maddə 489**) ilə 10-cu maddənin 2-ci bəndinin dördüncü hissəsində «**müvafiq sənəd verir (əlavə № 1)**» sözləri «**vergi ödəyicisinin indentifikasiya nömrəsini (VÖİN) verir**» sözləri ilə əvəz edilmiş, 2-ci bəndinə isə altıncı hissə əlavə edilmişdir.

23 noyabr 2001-ci il tarixli 219-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 736**) ilə 10-cu maddəsinin 2-ci bəndi yeni redaksiyada verilmişdir. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~2. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin uçotunu onların~~

~~yaşadıqları və ya fəaliyyət göstərdikləri yerin vergi orqanları aparır.~~

~~Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin uçotu Azərbaycan Respublikası üzrə onların mövcudluğu və fəaliyyəti haqqında məlumatların toplanması və sistemləşdirilməsindən ibarətdir.~~

~~Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin uçota alınması üçün onlar notarial qaydada təsdiq edilmiş ərizələrində soyadını, adını, atasının adını, anadan olduğu vaxtı və yeri, şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumatları (sənədin seriyası, nömrəsi, kim tərəfindən və nə vaxt verilməsi), yaşadığı yeri, ümumi şəkildə sahibkarlıq fəaliyyətinin növünü göstərməlidirlər.~~

~~Sənədlər təqdim olunduqdan sonra müvafiq dövlət orqanı 5 gün müddətində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin uçota alınmaları haqqında vergi ödəyicisinin indentifikasiya nömrəsini (VÖİN) verir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin uçota alınmalarına görə dövlət rüsumu tutulmur.~~

~~Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər uçotdan öz ərizələrinə əsasən çıxarılırlar.~~

~~Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin uçota alınması qaydalarını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.~~

[22] 24 dekabr 1996-cı il tarixli 214-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 4, maddə 280**) ilə 11-ci maddə yeni redaksiyada verilmişdir. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~M a d d ə 11. **Xüsusi icazə tələb edən sahibkarlıq fəaliyyəti**~~

~~1. Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyətlə məşğul olmaq üçün hüquqi şəxslər dövlət qeydiyyatına alındıqdan sonra və fiziki şəxslər müəyyən edilmiş qaydada lisenziya almalıdırlar. Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı bu Qanuna əlavə olunur (əlavə N 2).~~

~~Xüsusi razılıq (lisenziya) müəyyən müddət üçün verilir.~~

~~Xüsusi razılıq (lisenziya) müəssisənin və ya fiziki şəxsin fəaliyyətinin xarakterindən asılı olmayaraq verilir.~~

~~Ayrı-ayrı fəaliyyət növləri üzrə xüsusi razılıq (lisenziya) verilməsi qaydaları qanunla və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi qaydada təsdiq olunmuş Əsasnamələrə müvafiq müəyyən olunur.~~

~~2. Hüquqi (fiziki) şəxs, xarici hüquqi şəxslərin filialları və nümayəndəlikləri xarici hüquqi şəxsin öz ölkəsində müvafiq fəaliyyətlə məşğul olmaq üçün xüsusi razılığı (lisenziyası) olmadıqda xüsusi razılıq (lisenziya) verilməsi üçün Azərbaycan Respublikası qanunlarında və digər qanunvericilik aktlarında nəzərdə tutulmuş dövlət orqanına müraciət edirlər.~~

~~Müraciətə Azərbaycan Respublikasının müvafiq qanunlarında və digər qanunvericilik aktlarında nəzərdə tutulan sənədlər əlavə edilməlidir.~~

~~Yalnız bu xüsusi razılıq (lisenziya) verildikdən sonra həmin xüsusi razılıqda (lisenziyada) müəyyən edilən müddətdə və qaydada orada göstərilən sahibkarlıq fəaliyyəti növü həyata keçirilə bilər.~~

~~Sənədləri qəbul etdikdən sonra müvafiq dövlət orqanı 15 gün müddətində müraciətçiyə xüsusi razılıq (lisenziya) verir, yaxud xüsusi razılıq (lisenziya) verilməsindən imtina edilməsi barədə imtinanın əsaslarını göstərməklə yazılı məlumat verir.~~

~~Təqdim olunmuş sənədlərdə yol verilmiş çatışmazlıqlar aradan götürüldükdə sənədlərə təkrar təqdim edildikdən sonra 5 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.~~

~~Ayrı-ayrı fəaliyyət növləri üzrə xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan sənədlərin siyahısı, xüsusi razılıq (lisenziya) verilməsi müddətləri, onun dayandırılması və ləğv edilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə nizama salınır.~~

~~Xarici hüquqi şəxslərin filialları və ya nümayəndəlikləri xarici hüquqi şəxsin öz ölkəsində müvafiq fəaliyyətlə məşğul olmaq üçün xüsusi razılığı (lisenziyası) olduqda, Azərbaycan Respublikasında bu fəaliyyət növü üçün xüsusi razılığı (lisenziyanı) verən müvafiq orqanın yazılı icazəsi əsasında Azərbaycan Respublikasında bu fəaliyyətlə məşğul ola bilər.~~

~~3. Xüsusi icazə verilməsindən aşağıdakı hallarda imtina edilir:~~

~~xüsusi icazə verilməsi qaydasında nəzərdə tutulmuş sənədlər təqdim edilməyəndə;~~

~~xüsusi icazə verilməsi üçün təqdim olunan sənədlərdə saxtalaşdırmalara yol verildikdə;~~

~~ərizəçi cəmiyyət, ətraf mühit, ölkənin müstəqilliyi, insanların həyat və sağlamlığı üçün təhlükə~~

~~doğuracaq fəaliyyətlə bağlı sahələrdə sahibkarlıqla məşğul olmaq istədikdə.~~

~~4. Əgər xüsusi icazə bu maddədə müəyyən edilmiş müddətdə verilməzsə və ya sahibkar xüsusi icazənin verilməsini əsassız hesab edirsə, o, müvafiq məhkəməyə müraciət etmək hüququna malikdir.~~

~~5. Məhkəmə, xüsusi icazənin verilməsi müddətinin gecikdirilməsini və ya xüsusi icazə verməkdən imtinanın əsassızlığı faktını aşkar edərsə, xüsusi icazə verilməsi haqqında qərar çıxarır. Xüsusi icazə verən orqan məhkəmənin qərarını aldığı vaxtdan etibarən üç gün müddətində icra etməlidir.~~

~~Eyni zamanda məhkəmə təqsirkar vəzifəli şəxsi qanunvericilikdə nəzərdə tutulan qaydada məsuliyyətə cəlb edə bilər.~~

4 aprel 2014-cü il tarixli **927-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 27 aprel 2014-cü il, № 86, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 333)** ilə 11-ci maddənin 5-ci hissəsinin üçüncü abzasında "**qanunvericilikdə**" sözü "**qanunla**" sözü ilə əvəz edilmişdir.

[23] 11 noyabr 2016-cı il tarixli **401-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 dekabr 2016-cı il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2014)** ilə 12-ci maddənin 4-cü hissəsində "**orqanların**" sözü "**qurumların**" sözü ilə əvəz edilmişdir və həmin hissəyə hər iki halda "**orqanlar**" sözündən sonra ", **qurumlar**" sözü əlavə edilmişdir.

[24] 30 may 2006-cı il tarixli 122-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 8, maddə 657**) ilə 12-ci maddəsinin 5-ci bəndinin birinci abzasında "**Azərbaycan Respublikasının qanunvericiliyində**" sözləri "**Qanunda**" sözü ilə əvəz edilsin və ikinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Sahibkarın əmlakı Azərbaycan Respublikasının "Mülkiyyət haqqında" Qanuna əsasən dövlət ehtiyacları üçün alınarsa ona müvafiq kompensasiya verilir.~~

1 aprel 2008-ci il tarixli 588-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №5, maddə 348**) ilə 12-ci maddəsinin 5-ci bəndinin ikinci abzasından "**və ya ictimai ehtiyaclar**" sözləri çıxarılmışdır.

[25] 11 noyabr 2016-cı il tarixli **401-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 dekabr 2016-cı il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2014)** ilə 13-cü maddənin adında və 1-ci hissəsinin birinci bəndinin birinci cümləsində "**dövlət nəzarəti**" sözləri "**nəzarət**" sözü ilə əvəz edilmişdir.

[26] 11 noyabr 2016-cı il tarixli **401-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 dekabr 2016-cı il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2014)** ilə 13-cü maddənin 1-ci hissənin birinci bəndinin ikinci cümləsində "**orqanlar**" sözü "**orqan və qurumlar**" sözləri ilə əvəz edilmişdir.

[27] 11 noyabr 2016-cı il tarixli **401-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 dekabr 2016-cı il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2014)** ilə 13-cü maddənin 1-ci hissənin ikinci bəndində **"dövlət nəzarət orqanlarının**" sözləri "**orqanların (qurumların)"** sözləri ilə əvəz edilmişdir.

[28] 30 sentyabr 2014-cü il tarixli **1036-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2014-cü il, № 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 10, maddə 1156)** ilə 13-cü maddəyə 3-cü hissə əlavə edilmişdir.

[29] 23 noyabr 2001-ci il tarixli 219-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 736**) ilə 14-cü maddə çıxarılmışdır. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~M a d d ə  14.~~ ~~**Sahibkarlıq fəaliyyətindən əldə olunan mənfəətdən və sahibkarın şəxsi gəlirindən vergi tutulması**~~

~~Hüquqi şəxs yaradılmaqla həyata keçirilən sahibkarlıq fəaliyyətindən əldə olunan mənfəətdən və sahibkarın şəxsi gəlirindən vergilərin tutulması Azərbaycan Respublikasının qüvvədə olan vergi qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.~~

~~Sahibkardan əsassız olaraq məcburi surətdə vergi və digər ödəmələr tutularsa və ya sahibkara vergi qanunvericiliyini pozduğuna görə cərimə sanksiyaları düzgün tətbiq edilməzsə, sahibkarın buna yol vermiş orqanlara iddiası üzrə bütün qeyri-qanuni tutulmuş məbləğ həmin dövr üçün kredit faizi əlavə olunmaqla qaytarılır və ya sahibkarın razılığı ilə növbəti dövrün vergilərinin ödənməsi hesabına aid edilir.~~

[30] 4 aprel 2014-cü il tarixli **927-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 27 aprel 2014-cü il, № 86, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 333)** ilə 15-ci maddədə "**qanunvericiliyə**" sözü "**qanuna**" sözü ilə əvəz edilmişdir.